İftixar

# Dan yeri söküləndə

## İki hissəli qəmli komediya

**AŞIQ ƏHSƏN** —Yox-yox, ölsə yaxşıdı, onsuz da bu gün-sabah Cəlil Əfəndi təzə qəbiristanlıq yeri alır, elə birinci səni basdırarıq. Necə olmasa generalsan dana... Gələcək nəsillər də ordanca görər ki, bu kəndin qəbristanlığının ilk ölüsü general olub... Səni kimi generalı Qavrı çayı aşağı axıdım, Qavrı çayı yuxarı axtarım... *(Dul Alı yenə də çubuq atını çapa-çapa gəlir.)* Budu ey, generalın biri də gəlir. Bir kəndin bu qədər generalı ola, amma gücü çatıb bir qəbiristanlıq yeri ala bilməyə. Sən görəcəyə bir bax...

**DUL ALI** — Savağın xeyir, a Muncuqlu Mahmud... Hansı cəhənnəmə gedirsən savax-savax? Şəhərə gedirsənsə gəl, min tərkimə, aparım səni şəhərə...

**MUNCUQLU MAHMUD** — Sənin atın məni götürə bilməz... Gücü çatmaz... Həm də biz iki nəfərik, yerləşmərik...

**DUL ALI** — Həncəri güjü çatmaz ə, görmersənmi qat təzə, yağın içindədi... Dünən Baduladze bağışdıyıb, cins atdı... Heç Koroğluda da yox idi belə at... Baduladze deyir bircə Hitlerdə belə at olub, onu da Stalin gözünə döndüyüm xəlvəti oğurlatdırıb...

**MUNCUQLU MAHMUD** — Baduladze vryot... Vopervıx, Hitlerin elə atı olmayıb... Vo-vtorıx, Stalin nikoqda niçeqo ne kral... On zavoyovıval, kak mujçina... Ne to, çto Baduladze... Kənddə at-eşşək qalmadı, hər gecə Obolo Bəşirə oğurlatdırır, sonra da düşür kəndin tövlələrini bir-bir gəzməyə. Guya at-eşşək işut... A na samom dele razvedku delaet; örgənir görsün ki, kimin oğurlanası nəyi var. Odu, bu gecə də yazıq yetimin inəyini mələtdirib. Stalin bıl nastoyaşiy voin-fenomen. Voopşe, kto on takoy, çto Stalinin adını çəkir? On ne imeet pravo onun adını çəksin... Bessovestnıe, podletsı nesçastnıe! Tolko za eto ya moq bı ubit etoqo kozla... Qospodin Cəlil Əfəndi, vı emu skajite, skajite, çto ya moq bı ubit etoqo neqodyaya, etoqo podletsa!.. *(Getdikcə əsəbiləşir, özündən çıxır, az qala həddini aşmaq dərəcəsinə çatır, ürəyini tutur.)*

**LYUDMİLA** — *(Tez çantasından dərman çıxarır, tələsik onun dilinin altına qoyur.)* Uspokoysya Maxmud, uspokoysya milıy, uspokoysya... Tı znaeş, çto tebe nelzya nervinçat... Uspokoysya... Oni şutyat...

**CƏLİL ƏFƏNDİ** — Sakit ol, ay Mahmud, sakit ol. Üzmə özünü.

**AŞIQ ƏHSƏN** — Ayə, a Muncuqlu Stalin, sən niyə yanırsan belə? Nə yaman Stalinin qədrini bilən olubsan? Dədələrimizi Stalin sürmədimi Sibirə? Sənin özün o gorbagornan Bakıda, Tiflisdə, Urisetin çöllərində azmı dəyirmanın gözünə ölü girib, diri çıxmışdın? Neçə dəfə o nadürüstdən ötrü ölümün gözünə dik baxmışdın? Axırı nooldu? Az qalmışdı Sibirin soyuğunda dişlərin ağara qalsın. Allah bu Lyudanın atasına öz dininin üstündə rəhmət eləsin. Oğul-uşaq üzünə də həsrət qaldı, əmbə zalım qızı səni bir dəqiqə də tək buraxmadı. Neçə illərdi yedəyindən tutub gəzdirir. Bizimkilərdən olsaydı çoxdan daşını atmışdı sənin. Sən get Lyudanın dədəsinə rəhmət oxu. Onun qədrini bil. Yoxsa nə vıstupat eliyirsən Stalinnən ötrü.

**MUNCUQLU MAHMUD** — Tı ponimaeş, on bıl moy samıy blizkiy druq... Prosto ya soverşil oçen qlupuyu, politiçeskuyu oşibku, koqda pered vsemi kriçal "Da zdrastvúet velikiy Stalin! Da zdrastvuet, velikiy Lenin!" Ya doljen bıl naoborot qovorit... Birinci Lenini deməli idim, potom Stalini... Po etomu on menya nakazıval. On do takoy stepeni bıl çesnım, çto menya nakazıval... I on bıl prav... On vseqda bıl pravom, çesnım... On nekoqda ne aşibalsa... Da zdrastvuet velikiy Stalin!.. Da zdrastvuet ne zamenimıy velikan...

**DUL ALI** — Ayə, a Muncuxlu Mahmud, belə da zdrastvuy Nanı Kişi!.. Da zdrastvuy Abı qağam!.. Da zdrastvuy Cəlil Əfəndi...

**MUNCUQLU MAHMUD** — Zatknis, nesçastnıy... Koqda burda Stalinin pamyatniki var idi, onda sən Stalinin sağlığına ayaq üstə bir tuluq çaxır içirdin. Bu aşığın dədəsi sazı dınqıldada-dınqıldada pamyatnikin dörd dovrəsinə birnəfəsə dörd dəfə kruq eləyirdi. Bu mollanın atası, əmiləri, dayıları o pamyatnikin qabağında qurban kəsirdilər. Kak budto dədələrinə ehsan davali. Ya prav, Cəlil Əfəndi?..

**MOLLA QASIM** — İndi də sənin heykəlini qoyub, sənə ehsan verəcəyik, inşallah, a Muncuqlu Stalin...

**DUL ALI** — Ayə, a Molla Qasım, insafın olsun, bu dəlinin heykalını burya qoymaxmı olar heç? Burya Nanı Kişinin heykalı yaraşır... Qoyun, mən də gejə- gündüz dibindəcə atın belində durub qaroulunu çəkim. Vallah gözümü də yummaram. Özüm də heykala dönərəm. Heç yerə tərpənmərəm.

**AŞIQ ƏHSƏN** — Cəlil Əfəndi də bağışdasın, birdən o məsələ... Onda nağayracaxsan?

**DUL ALI** — Deyirəm eey, adamın ağlı azalanda nə günə düşürmüş? Şükür yaratdığına, Allah.Yaradırdın- yaradırdın, heç olmuya bircə qırıq da ağıl verəydin bu be-

*nı Kişinin arxasınca qaçır.)*

**MUNCUQLU MAHMUD** — On durak, on nastoyaşiy durak. Takoqo duraka vryad li eşyo qde naydeş...

**LYUDMİLA** — Tı ne ponimaeş. On, bednıy, lyubit yeyo.

**MUNCUQLU MAHMUD** — A çto, razvi ya ne lyublyu tebya? U tebya net sovesta... Ya bolşe lyublyu. Tı nikoqda ne otsenivala mənim sevgimi... Mən səni kak sevmişəm? Bessovestnaya staruxa... Davno nado bilo poslat tebya v Sibir, vsled za tvoim otsom...

**LYUDMİLA** — Ladna, Maxmud, uspokoysya. Tı bolşi lyubiş.

**CƏLİL ƏFƏNDİ** — Həə, bu şəhər avtobusu deyəsən gələnə oxşamır... Mən də bu gün Qubernatorun qəbulunda olmalıyam. Qorxuram bu qəbirstanlığın məsələsi tilsimə düşə. *(Barbaryan amiranə şəkildə səhnəyə daxil olur.)*

**BARBARYAN** — Vsem, vsem, vsem!.. Suğelan, suğelan, suğelan!.. Hamıya, hamıya, hamıya!.. Hoputum, birdən salam!.. Kimin xoşu gəlmir almaya bilər...

**AŞIQ ƏHSƏN** — Hansı köpəyoğlunun başına hava gəlib, sənin salamını almıyıb özünü işə sala?

**BARBARYAN** — Eli, bu Muncuqlu Mahmud genə şahara gedir?.. Şahara gedirsa getmasin, çunki avtobus ne budet... Yolda pakrışqaları buraxmışdı... Mana dedi ki, kanda xabar verim... Tak çto, doroqoy Maxmud, sanin şahara getmayin sabaha qaldı...

**CƏLİL ƏFƏNDİ** — Baho, bu çox pis oldu!..

**MOLLA QASIM** — Bə bu Muncuxlunun generalisimus məsələsi həncəri olacaq? Kişiyi Stalin çağırtdırmışdı yanına...

**LYUDMİLA** — Nu, çto za bezobrazie, a? Çto vse eto znaçit, Djalil Efendi? Kuda eto Baduladze smotrit? Çem voopşe on zanimaetsya? U neqo vseqo-to delov- kajdıy den za çujoy sçyot pyanstvovat, çto-li?

**MUNCUQLU MAHMUD** — Eeh, Stalin, Stalin, tı smotri ha, bizi kimlərin umuduna qoydun getdin!.. Eto, razve qosudarstvo?.. Eto prosto bardak!..

**AŞIQ ƏHSƏN** — Gorun çartdasın a Stalin, gör bu beçərəni kimlərin umuduna qoyubsan... Gedəndə özünnən niyə aparmırdın bu çıxdaşı, bizim də gözümüzü mazol eləməyəydi?..

**CƏLİL ƏFƏNDİ** — Həəə, bu avtobusun gəlməməyi doğrudan çox pis oldu... Gedim görüm Qara Qul evdədimi, maşınıynan məni aparsın şəhərə... Yoxsa Qubernatorun qəbulu bir də gələn həftə olacaq...

**MOLLA QASIM** — Bə nədi, bir həftə gözdəməkmi olar? Birdən sabah biri yıxıldı öldü, harya basdıracayıq?.. Kənddə o qədər yaşı həddini aşan adamlar var ki... *(Cəlil Əfəndi tələsik gedir.)*

**MUNCUQLU MAHMUD** — Tı çto, öləndə elə təkcə yaşlılar ölür? Sən ölə bilməzsən?..

**MOLLA QASIM** — Ayə, a muncuğun gözünə girsin, indi sən dura-dura mənmi öləsiyəm?.. Yaşın yüzü ötüb, əmbə daş armud kimi üzünə dayanıb durubsan, elə bil ölməyə xəcalət çəkirsən... Bir də, mən ölsəm bə səni kim quyuluyacaq?.. Əmbə, sən ölsən mən səni el adətinnən, belə saznan, söznən, üzümü-gözümü cırıx-cırıx eliyə-eliyə, ədli-düdlü aparıb elə quyulayacam ki... Belə dərinnən eey!..

**LYUDMİLA** — Prosto bezobrazie... Tak nevozmojnojit. Nu çto za transport a? Maxmud, poydyom domoy. Zavtra poedim v qorod...

**MUNCUQLU MAHMUD** — Net, ya do kontsa budu jdat... *(Günəş səhnəyə daxil olur. Salamlaşıb poçta tərəf istiqamətlənir.)*

**GÜNƏŞ**— Sabahınız xeyir olsun... Salam Lyuda məllimə, poçtalyon Qəfəri görmüyübsünüzmü?..

**LYUDMİLA** — Net, doçka, biz səxərdən burdayıq, xələm gəlməyibdi. Nu, etot avtobus merat toje xələm gəlmədi. Hamısı işlər qaldı sabaxa ...

**MOLLA QASIM** — A Günəş, a qızım, Xıdırdan nə xəbər?.. Gör getdiyi neçə aydı?.. Gedənnən heç xəbər göndəribmi?.. Hardadı?.. Hansı şəhərdədi?.. Nə işnən məşğuldu?.. Hansı məssəbə qulluq eliyir?..

**GÜNƏŞ** — Eey, ay Qasım əmi, ay döylü ey, düz iki il yarımdı.

**AŞIQ ƏHSƏN** — Gör bir vaxt necə tez-tez uçur. Elə bil dünən idi...

**GÜNƏŞ**— Vallah, içim özümü yandırır, çölüm özgəni... Xalx deyir ki, baxdavarın əri Urusyətdədi, qaz vurub qazan doldururlar... Əmbə gedənnən bir ovuc ununu da görməmişik... O yazıq arvad da elə can üstündədi, bu gecə yenə halı dəyişmişdi... Elə "Xıdırım" deyib durur!.. "Gəlsəydi,"-deyir, "canımı tapşırardım Əzrayıla..." Allaha da ağır getməsin, yazıq arvad zülüm çəkir eləcənə...

**AŞIQ ƏHSƏN** — Elə sən özün azmı zülüm çəkirsən?..

**GÜNƏŞ** — Özüm indi cəhənnəm, borcumdu... Xıdırdan bir xavarın olmaması da bir yannan darıxdırır məni... Vallah, yaxşı ki, dədəm hələm sağdı... Yoxsa lap başımı itirərdim...

**LYUDMİLA** — Poterpi, solnışka, poterpi... Boq özü kömək olar...

**GÜNƏŞ**— Nə bilim, görək, Allah özü kərimdi... *(Səmtini dəyişib bazara tərəf gedir.)*

**MOLLA QASIM** — *(Günəşin arxasınca)* Nağayrım, sözə baxmadın...

***(davamı var)***

PS. Əvvəli ötən sayımızda